

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 236 (21.897)

*13 dekabr 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın Dövlət Himni səslənib.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edib, onun məzarı önünə əklillər, gül dəstələri qoyub, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyiblər.



## Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir







Dekabrın 12-də Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə tər gül dəstəsi qoymuş, xalqımızın böyük oğlunun xatirəsinə ehtiramını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali və orta ixtisas məktəblərinin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri, minlərlə insan ulu öndərin abidəsini ziyarət edərək dahi şəxsiyyətin əziz xatirəsinə sonsuz məhəbbətlərini ifadə etmişlər.

Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, ordu quruculuğu və milli-mənəvi yüksəliş Heydər Əliyev siyasi xəttinin əsasını təşkil edir. Xalqını xoşbəxt görmək, onun milli maraqlarını qorumaq, Vətənini müstəqil etmək ulu öndərin həyatının mənası idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"İnsan tarixə öz əməlləri ilə düşür. Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, ölkəmizdə demokratik cəmiyyət qurmaq".***

Şəxsiyyəti tarix yaradır. Ümummilli lider Heydər Əliyev isə tarix yaradan, müasir dünyanın siyasi tarixində izini qoymuş böyük şəxsiyyət və dövlət xadimidir. O, qeyri-adi istedadı, dərin zəkası və möhtəşəm dövlətçilik məharəti ilə bütün dünyada Azərbaycan adlı sönməz bir məşəl yandırmışdır.

Ümummilli liderimiz öz gücünü xalqından alırdı, xalqına arxalanırdı, xalqına güvənirdi. Onun zəngin siyasi irsinin əsasında da məhz xalq-rəhbər birliyi dayanırdı. Dövləti və xalqı qarşısında müstəsna xidmətlər göstərən xalqımızın böyük oğlu deyirdi: ***"Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə mən özüm üçün başqa bir mükafat görmürəm".***

Dahi şəxsiyyətin həyatı və siyasi fəaliyyəti Vətənə xidmət nümunəsidir. 1969-cu ildən başlanan şərəfli missiya – Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialın formalaşdırılması və onun ölkənin gələcək inkişafına, xalqın rifahının yüksəldilməsinə yönəldilməsi, milli kimliyin bərpası və kadr hazırlığına başlanması dahi şəxsiyyətin müstəqil Azərbaycanın gələcəyi üçün həyata keçirdiyi mühüm tədbirlər idi. Həmin dövrdə ölkəmizdə böyük istehsal müəssisələri, zavodlar, fabriklər istifadəyə verildi, təhsil, səhiyyə, mədəniyyət ocaqlarının geniş şəbəkəsi yaradıldı, dərin köklərə malik olan mənəvi dəyərlər bərpa edildi.

Vətəninin, xalqının taleyini öz taleyinə çevirən, Vətənin xilasını özünün tarixi missiyası kimi qəbul edən ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan naminə fəaliyyətinin Naxçıvan dövrü müstəqillik yolunda xüsusi mərhələ təşkil edir. Heydər Əliyevin müdrikliyi, siyasi təcrübəsi və möhkəm iradəsi nəticəsində 1990-1993-cü illərdə Naxçıvan işğaldan qorunmuş, muxtar respublika üzləşdiyi bütün çətinlikləri dəf etmiş, bu qədim diyarda müstəqil dövlətçiliyimizin əsasları işlənib hazırlanmışdır. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmiş, ilk milli ordu hissələri yaradılmışdır.

1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider ölkədə ictimai-siyasi sabitliyi təmin etmiş, sosial-iqtisadi inkişafın əsasını qoymuş, Azərbaycanın haqq səsini bütün dünyaya çatdırmışdır. Möhtərəm Heydər Əliyevin ölkəmizdə birinci hakimiyyəti gələcək müstəqillik üçün iqtisadi və milli ideoloji bazanın yaradılmasına hesablanmışdırsa, Azərbaycanda ali hakimiyyətə ikinci qayıdışı MİLLİ QURTULUŞ və müstəqil dövlətçilik tariximizə çevrilmişdir.

***"Mən həyatımı insanlara səadət gətirməyə həsr etmişəm. Mən həyatımı xalqın azadlığına həsr etmişəm. Mən həyatımı millətimin, xalqımın rifahının yaxşılaşdırılmasına həsr etmişəm. Həyatımı Azərbaycan torpağında qurub-yaratmağa həsr etmişəm",*** – deyən ulu öndər bu ali missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətini yaratdı, onun gələcək inkişaf yolunu müəyyənləşdirdi. Milli Qurtuluşdan başlanan bu yol dövlət müstəqilliyimizi əbədi, dönməz və sarsılmaz etdi, Azərbaycan davamlı inkişaf və yüksəliş mərhələsinə qədəm qoydu.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının milli sərvətinə çevrilmiş çox dəyərli iki əsəri var: bunlar müstəqil Azərbaycan dövləti və bu dövlətin gələcək inkişaf yolunu müəyyənləşdirən siyasi xətdir. Bu mənada əminliklə demək olar ki, dahi rəhbərin siyasi irsi xalqımızın müstəqillik yolunu işıqlandıran mayakdır. Ümummilli liderimizin siyasi kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ümummilli liderimizin azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, ulu öndərə məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Heydər Əliyev siyasi xəttinə dərin sədaqət və bu yolun uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasının da kompleks inkişafının əsasını qoymuş, muxtar respublika dahi rəhbərin arzuladığı inkişafa qovuşmuş, etibarlı müdafiə sistemi yaradılmış, ərzaq və enerji təhlükəsizliyi təmin edilmişdir. Bu gün Naxçıvan Muxtar Respublikasında geniş quruculuq işləri aparılır, əhalinin rifahı ilbəil yaxşılaşdırılır, yaşayış məntəqələri müasirləşdirilir,

*Ardı 2-ci səhifədə*

yeni sosial obyektlər, xidmət və istehsal sahələri istifadəyə verilir.

Ümummilli lider Heydər Əliyevin ideyaları müstəqil Azərbaycanın inkişaf yoludur. Bu yol dünən və bu gün olduğu kimi, gələcəkdə də müstəqil Azərbaycana qələbələr qazandıracaqdır. Bu gün biz Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyev düşünürük. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!"***

Dekabrın 12-də muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın bütün rayonlarında ehtiramla anılmışdır

## *Şərur rayonu*



***Bu qədim oğuz-türk yurdu öz inkişaf yoluna ötən əsrin 70-ci illərində – ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə qədəm qoyub. Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilib, ulu öndərimizin bilavasitə rəhbərliyi ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan verib.***

Məhz ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı sayəsində ötən əsrin 70-ci illərindən başlayaraq Şərur rayonunda kənd təsərrüfatında mühüm irəliləyişlər əldə olunub. Həmin dövrdə respublikamızda bərqərar olan sosial-iqtisadi inkişaf rayona da sirayət edib. Geniş aqrar sənaye komplekslərinin yaradıldığı bu bölgə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında həmişə ön sıralarda olub. Buna görə də rayon sakinləri ümummilli liderimizin rəhbərliyi ilə həyata keçirilən tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Ulu öndər Şərur rayonuna yüksək qiymət verərək deyib: ***"Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Ötən əsrin 90-cı illərində muxtar respublikanın ağır blokada şəraitində yaşaması, hakimiyyətdə olan bəzi qüvvələrin regiona ögey münasibət göstərməsi bütün rayonlar kimi, Şərur bölgəsinə də öz mənfi təsirini göstərib. Uzun illər boyu min bir əziyyətlə yaradılan müəssisələr iflic vəziyyətinə düşərək fəaliyyətini dayandırıb. Kənd təsərrüfatı sahəsində ciddi problemlər özünü göstərib. Lakin görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə, eləcə də xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra muxtar respublikanın hər bir rayonu kimi, Şərura da böyük diqqət və qayğı göstərilib. Həmin illərdə respublikamızın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilib, onlarca məktəb, xəstəxana, mədəniyyət müəssisəsi tikilib, yollar, körpülər salınıb, meliorasiya qurğuları istismara verilib. Ümummilli liderin bilavasitə rəhbərliyi ilə rayonda yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan verib.

Muxtar respublikamızda savadlı, bacarıqlı kadrların hazırlanması, mədəniyyətin və incəsənətin inkişafı, milli-mənəvi sərvətlərin, tarixi abidələrin qorunması, muzeylərin təşkili sahəsində ulu öndərin həyata keçirdiyi ardıcıl tədbirlərdən də Şərur rayonuna xeyli pay düşüb. Yeni sənaye müəssisələrinin işə salınması, aqrar sahədə həyata keçirilən islahatlar rayonda iqtisadiyyatın, buna müvafiq olaraq əhalinin maddi rifah halının xeyli yüksəlməsinə imkan yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu siyasətə sadiqliyinin nəticəsidir ki, son illər rayonda 45-dən artıq yaşayış məntəqəsində geniş quruculuq tədbirləri həyata keçirilib. Təkcə bu il Arpaçay, Çəmənli, Qarahəsənli, Ələkli kəndlərində yeni sosial obyektlər istifadəyə verilib, bütün infrastruktur təzələnib, Şərur şəhərində yeni üçmərtəbəli tam orta məktəb binası istifadəyə verilib, bir beşmərtəbəli ictimai yaşayış binası əsaslı şəkildə yenidən qurulub. Şərur sakinləri həyata keçirilən bu tədbirləri ulu öndər Heydər Əliyev siyasətinə sadiqliyin nəticəsi kimi dəyərləndirirlər.

Dövlətimizin diqqət və qayğısı sayəsində regionların inkişafını nəzərdə tutan dövlət proqramlarının uğurla reallaşması nəticəsində Şərur rayonunda bütün sahələr, o cümlədən iqtisadiyyat inkişaf edib, yeni iş yerləri açılıb.

Dekabrın 12-də muxtar respublikamızın hər yerində, eyni zamanda Şərur rayonunda da dahi şəxsiyyətin, əbədiyaşar liderin anım mərasimi keçirilib.

Həmin gün yüzlərlə sakin ulu öndərin rayon mərkəzindəki əzəmətli abidəsi önünə gələrək ümummilli liderin xatirəsini yad edib, ona hörmət və ehtiramlarını bir daha nümayiş etdirib.

## *Babək rayonu*

***Muxtar respublikamızın ərazisinə və əhalisinə görə böyük bölgələrindən biri olan Babək rayonunun yaranması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Azərbaycana rəhbərliyinin birinci dövründə respublikanın ucqar rayonlarının iqtisadiyyatını möhkəmləndirmək siyasətinin nəticəsi kimi 1978-ci il oktyabrın 23-də təşkil olunmuş bu rayona mərkəzi hakimiyyətin iradəsinin əksi olaraq Babək adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim Azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində həyata keçirdiyi taleyüklü tədbirlərin nəticəsi idi.***



Bu gün rayon mərkəzi Babək qəsəbəsi və kənd yaşayış məntəqələri sürətli inkişaf yolundadır. Nehrəmdə, Qahabda, Kərimbəylidə, Şıxmahmudda, Göynükdə, Nəhəcirdə, Naxışnərgizdə, Yuxarı Buzqovda, Gərməçataqda və digər kəndlərdə müasir infrastruktur yaradılıb.

Ulu öndər Heydər Əliyevin siyasətinin uğurla davam etdirilməsi sayəsində rayonda ötən illər ərzində sənaye məhsulunun həcmində bir neçə dəfə artım olub. Şübhəsiz, Babək rayonunun təbii sərvətləri, burada sahibkarlığın və kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısı daha çox sayda istehsal sahəsinin yaradılmasına imkan verir. Rayon ərazisində iri daş məhsulları, kərpic, beton məmulatları və mineral su istehsalı müəssisələri ilə yanaşı, kiçik sahibkarlıq obyektləri də vardır. Nehrəmdə və Şıxmahmudda gəc istehsalı sahələrini, Cəhri, Sirab və Hacıvardakı un dəyirmanlarını və digər kəndlərdəki istehsal sahələrini də nəzərə alsaq, burada onlarla insanın işlə təmin olunduğunu görmək mümkündür.

2017-ci il də Babək rayonu üçün əlamətdar olub. Bəhs olunan dövrdə rayon İcra Hakimiyyətinin inzibati binası əsaslı şəkildə yenidən qurulub, Nehrəmdə Heydər Parkı və yeni üzümçülük təsərrüfatının açılışı olub. Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinə birləşdirən yol, sentyabr ayında isə rayonun ucqar dağ kəndlərindən olan Payızda 4 sosial obyekt və kənd yolu sakinlərin ixtiyarına verilib. Bu ay isə rayonun ucqar dağ və sərhəd kəndi Gərməçataq adını müasirləşən kəndlər sırasına yazdırıb.

Rayonda tarixi-mədəni irsin qorunmasına həssas münasibət göstərilib və keçmişimizi özündə yaşadan Nehrəm kəndindəki "İmamzadə" türbəsində təmir-bərpa işləri aparılıb. Babək qəsəbəsində isə yeni yaşayış binasının inşasına başlanılıb.

Dekabrın 12-də ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bu rayonda da böyük izdihamla anılıb. Həmin gün rayon mərkəzinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilib. Rayon sakinləri müstəqil Azərbaycanın qurucusunun xatirəsini dərin ehtiramla yad ediblər.

* * *

## *Ordubad rayonu*

***Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunda dahi rəhbərin qurub-yaratdıqlarını sadalamaqla bitməz. Rayonun hərtərəfli inkişaf etdirilməsi ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılıb.***





Qeyd etmək lazımdır ki, ötən əsrin 80-ci illərinin sonlarında bu yurd yerimizin də insanları böyük çətinliklərlə üzləşmişdilər. Ancaq dahi rəhbərin muxtar respublikaya gəlişindən sonra digər bölgələrimiz kimi, Ordubad da sürətli inkişaf yoluna qədəm qoydu, bölgədə həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində ictimai-siyasi sabitlik, əmin-amanlıq bərpa edildi. Rayonda müxtəlif sahələrin inkişafına əhalinin bütün təbəqələri cəlb edildi, məşğulluq probleminin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirildi, azad sahibkarlıq üçün geniş imkanlar yaradıldı, dağıdılmış aqrar sahə bərpa edildi.

Son illərdə Ordubad rayonunda əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, ulu öndərimizin Naxçıvanın inkişafı naminə başladığı işlər bu gün də uğurla davam etdirilir. Elə buna görə də həyata keçirilən tədbirlərin parlaq nəticələrini rayonun hər bir yaşayış məntəqəsində görmək olar. Muxtar respublikanın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər bütün bölgələr kimi, Ordubad rayonuna da öz töhfələrini verib, əhalinin həyat səviyyəsi xeyli yüksəlib. Bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb.

Cari ildə də Ordubad rayonunda tikinti-quruculuq işləri davam etdirilib, yeni bağlar, yaşıllıq sahələri salınaraq bölgənin abadlığına, gözəlliyinə xidmət göstərilib. Belə ki, rayonun ucqar yaşayış məntəqələrindən biri olan Üstüpü kəndində kompleks quruculuq tədbirləri həyata keçirilib. Hazırda rayon mərkəzində yeni rabitə evi tikilir, 24 mənzilli ictimai yaşayış binası təmir olunur, Ordubad dəmiryol vağzalı yenidən qurulur. Görülən işlərin nəticəsidir ki, bu gün Ordubad tarixiliyini saxlamaqla ən abad və müasir bir rayona çevrilib. Bütün bunlar Heydər Əliyev yolunun uğurla davam etdirilməsinin nəticəsidir. Ölkəmizin gələcəyi üçün gördüyü işlərə, insanların rifahı naminə misilsiz xidmətlərinə, bugünkü əmin-amanlığa, firavanlığa görə xalqımızın böyük oğlu rayon sakinləri tərəfindən həmişə minnətdarlıqla xatırlanır.

Dahi rəhbərin xatirəsinə sonsuz ehtiram dünən bir daha ifadə olunub. Ulu öndərin anım günündə rayon sakinləri görkəmli dövlət xadimi Heydər Əliyevin rayon mərkəzindəki büstü önünə gələrək ona sevgi və ehtiramlarını bildirib, ən böyük azərbaycanlının əziz xatirəsini bir daha yad ediblər.

*Ardı 3-cü səhifədə*

## Culfa rayonu



***Muxtar respublikamızın bütün bölgələri kimi, Culfa rayonunun sakinləri də ümummilli liderin anım günündə Onun əziz xatirəsini böyük ehtiramla yad ediblər.***

Culfa rayonu istər tarixi-mədəni, istərsə də strateji baxımdan regionun mühüm əhəmiyyət kəsb edən ərazilərindən biridir. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə digər rayonlar kimi, Culfa rayonunun da sosial, iqtisadi, mədəni yüksəlişinə daim qayğı ilə yanaşıb. Rayonun hansı səmtinə üz tutsan, orada dahi rəhbərin ideyalarının bu gün də uğurla həyata keçirildiyini görmək mümkündür.

Bu ilin ötən dövrü Culfa üçün əlamətdar olub. Belə ki, yanvarın 11-də Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı, kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mərasimdə iştirak edib.

"Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Əlincəçay yatağında kaptaj və onu sel sularından qorumaq üçün selyönəldici bənd tikilib. Sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Su anbarlarından təmizlənmiş su öz axını ilə Culfa şəhərinin və Gülüstan kəndinin əhalisinə fasiləsiz olaraq verilir. Bununla da, Culfa şəhəri və Gülüstan kəndində yaşayan əhali təmiz, dayanıqlı, ekoloji cəhətdən tam yararlı və Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq təmin edilib.

Tikinti-quruculuq tədbirləri hazırda rayonun Dizə kəndində davam etdirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Culfa Rayon İdarəsinin inşaatçıları tərəfindən Dizə kəndində tam orta məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa olunur.

Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da aqrar bölmənin inkişafı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, əhalinin məşğulluğu təmin olunub, maddi rifah halı daha da yaxşılaşıb.

Təbii ki, görülən işlər Culfa rayonunun sakinləri tərəfindən ümummilli liderin quruculuq siyasətinin davamı kimi minnətdarlıqla qarşılanır, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilir. Böyük liderə olan ehtiramın ifadəsidir ki, rayon sakinləri ulu öndərin anım günündə bir daha dahi rəhbərin əziz xatirəsini dərin hörmətlə anıb, Onun Culfa Rayon İcra Hakimiyyətinin binası qarşısında ucaldılmış büstünü ziyarət ediblər.

## Kəngərli rayonu

***Kəngərli rayonunun yaradılması və bugünkü inkişafı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin uğurlu ifadəsidir. Bu rayonun yaradılması, yeni idarə, müəssisə və təşkilatların fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasına, bölgə iqtisadiyyatının güclənməsinə, insanların məskunlaşmasına şərait yaradıb.***



Muxtar respublikamızda dahi şəxsiyyətin yolunun sədaqətlə davam etdirilməsi nəticəsində bütün bölgələrimiz kimi, Kəngərli rayonu da abadlığa qovuşub, burada geniş tikinti-quruculuq işləri həyata keçirilib. İnsana qayğını özündə təcəssüm etdirən bu inkişaf rayonun bütün kəndlərini əhatə edib, müasir məktəb binaları, səhiyyə və mədəniyyət ocaqları tikilib istifadəyə verilib, yollar yenidən qurulub, sənaye müəssisələri yaradılıb. Əsaslı və kompleks şəkildə aparılan tikinti-quruculuq tədbirlərinin nəticəsidir ki, rayon mərkəzi Qıvraq qəsəbəsi tamamilə öz simasını dəyişib. İndi burada ümummilli lider Heydər Əliyevin abidəsi, bir-birindən gözəl inzibati binalar, mədəniyyət və istirahət parkı, gözəl memarlıq quruluşuna malik mədəniyyət evi və digər quruculuq ünvanları rayon mərkəzinin simasına əsl gözəllik qatır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ötən dövr ərzində Kəngərli rayonunda görülmüş işləri yüksək qiymətləndirib, rayona səfərləri çərçivəsində bir sıra ünvanların açılışında iştirak edib. Ötən dövrdə rayonun bütün yaşayış məntəqələri abadlaşdırılaraq kompleks quruculuq işləri aparılıb, rayon mərkəzi və kəndləri birləşdirən yollar yenidən qurulub. Cari ildə də rayonda tikinti-quruculuq və abadlıq işləri davam etdirilir.

2017-ci ildə Qıvraq qəsəbəsində 224 yerlik yeni uşaq bağçası istifadəyə verilib, Şahtaxtı kəndində isə Şahtaxtinskilərin ev-muzeyi əsaslı təmir olunub. Muxtar respublikamızda tarixi abidələrə göstərilən qayğının ifadəsidir ki, bu gün rayonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 4 iyul tarixli "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" Sərəncamına əsasən həmin tarixi abidənin bərpası işləri və rayon mərkəzində inşa olunan 48 mənzilli yaşayış binasının tikintisi davam etdirilir.

Fəxrlə demək olar ki, Kəngərli bu gün muxtar respublikanın inkişaf etmiş rayonları sırasındadır. Rayonda inkişaf və yüksəliş davamlı xarakter alıb və sakinlərin rifah halı yaradılan bu şərait hesabına daha da yüksəlib. Kəngərli rayonunun sakinləri də bütün bunlara görə ulu öndərimizə minnətdar olduqlarını dərindən dərk edirlər.

Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi dekabrın 12-də Kəngərli rayonunda da böyük hörmət və ehtiramla anılıb. Dahi şəxsiyyətin anım günü ilə əlaqədar olaraq rayon sakinləri görkəmli dövlət xadiminin əziz xatirəsini yad etməklə Azərbaycanın xilaskarına və Onun nurlu yoluna olan hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər.

Həmin gün yüzlərlə rayon sakini xalqımızın böyük oğlunun rayon mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edib.

* * *

## Şahbuz rayonu



Hər il dekabrın 12-si xalqımızın ümummilli lideri Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün kimi bütün azərbaycanlılar tərəfindən ehtiramla anılır. Dahi şəxsiyyətin xalqımız qarşısındakı misilsiz xidmətləri sayəsində bu gün regionun lider dövlətinə çevrilmiş müstəqil Azərbaycan Respublikası bütün sahələrdə uğurlar qazanmaqla öz yoluna inamla davam edir. Həmişə ümumxalq sevgisi ilə xatırlanan ulu öndərin yorulmaz dövlətçilik fəaliyyəti sayəsində ölkəmizin hər bir guşəsində olduğu kimi, Şahbuz rayonunda da hərtərəfli inkişafa nail olunub. Bu dağ rayonunun əhalisinin firavan həyatı, yaxşı yaşayışı və torpağa bağlılığı ulu öndərin xalqımız qarşısındakı xidmətləri ilə bütünləşdikcə insanların qəlbində Heydər Əliyev ideyalarına sədaqət duyğuları daha da artır. Bu gün rayonda hamı başa düşür ki, Azərbaycanın güclü bir dövlət kimi yaşaması məhz ümummilli liderin yaradıcısı olduğu dövlətçilik yolunun təntənəsidir. Elə bu hisslərlə də anım günündə rayon ictimaiyyəti görkəmli dövlət xadimi Heydər Əliyevin Şahbuz Rayon İcra Hakimiyyəti önündə ucaldılmış büstünü ziyarət edib, al qərənfillər düzüb, dahi şəxsiyyətin əziz xatirəsini yad edib.

Şahbuzda ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi siyasətinin bəhrələrini aydın şəkildə görmək olar. Ötən dövrdə burada iqtisadiyyat inkişaf etdirilib, əhalinin yaşayış səviyyəsi yüksəldilib. Artıq Şahbuz şəhəri və rayonun bütün yaşayış məntəqələri müasirlik görkəminə bürünüb, rahat yol, nəqliyyat infrastrukturu, içməli su təminatı, etibarlı enerji və rabitə şəbəkəsi yaradılıb. Ötən illərdə rayonda aparılmış çoxsaylı quruculuq işlərinə bu il yeniləri də əlavə olunub, rayon mərkəzi və ətraf kəndlərə içməli su xətti çəkilib. Şahbuz Rayon Elektrik Şəbəkəsinin inzibati binası, "Şahbuz" yarımstansiyası istifadəyə verilib. Haliyədə rayon mədəniyyət evinin yeni binasının və Badamlı qəsəbəsində mineral su doldurulması üçün istehsal müəssisəsinin yaradılması işləri davam etdirilir.

Ulu öndərin əbədiyyətə qovuşmasından 14 il ötsə də, ölkəmizin artan gücündən bəhrələnib öz firavan həyatını qurmuş şahbuzlular dahi şəxsiyyət Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini, ölkəmizin, eləcə də muxtar respublikamızın çətin dövrlərindəki xilaskarlıq missiyasını həmişə minnətdarlıqla xatırlayacaqlar.

* * *

## Sədərək rayonu

***Sədərək sakinləri ulu öndərin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla anırlar.***



Dekabrın 12-də ulu öndərimizin əziz xatirəsini yad edən rayon ictimaiyyəti ümummilli liderimiz Heydər Əliyevin Heydərabad qəsəbəsindəki büstünü ziyarət edib, önünə al gül dəstələri düzüblər.

Rayon sakinlərinin dahi rəhbərimizə sonsuz məhəbbətinin səbəbi ulu öndərimizin bu bölgənin gələcəyi üçün gördüyü misilsiz tarixi işlərdir. Çünki sərhəd bölgəsi olan Sədərək rayonunun yaradılması, inkişafı və tərəqqisi ümummilli liderimizin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində Sədərək mənfur ermənilər tərəfindən mütəmadi olaraq hücumlara məruz qalıb. Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər olub. Həmin illərdə buradakı vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu hücumların qarşısının alınması üçün böyük xidmətlər göstərib, dünya ölkələrinin diqqətini burada baş verən hadisələrə yönəldib. Dahi şəxsiyyətin böyük nüfuzu, uzaqgörən siyasəti nəticəsində düşmən hücumlarının qarşısı qətiyyətlə alınıb, rayonun müdafiəsi üçün mühüm addımlar atılıb.

Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində olduğu dövrdə rayonun sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Bu gün bir qəsəbə və iki kənd yaşayış məntəqəsindən ibarət olan Sədərək rayonu ulu öndərimizin quruculuq və inkişaf xəttinin uğurla davam etdirilməsi sayəsində hərtərəfli tərəqqiyə qovuşub. Ötən illər ərzində rayon ərazisində inzibati qurumlar üçün yeni binalar, təhsil, səhiyyə, mədəniyyət obyektləri istifadəyə verilib, əhalinin məşğulluğu, məskunlaşması istiqamətində bir sıra işlər görülüb, qanlı-qadalı illərdə əkinsiz-biçinsiz qalan çöllərə məqsədyönlü tədbirlər hesabına yeni həyat verilib, bağ-bağçalar salınıb. Bu il də Sədərək rayonu quruculuq tədbirlərindən xeyli bəhrələnib. Belə ki, ötən ay Sədərək Rayon Mədəniyyət Evinin yeni binası istifadəyə verilib, bununla da, rayonun mədəni həyatı daha da canlanıb. Rayon mərkəzi Heydərabad qəsəbəsinin siması büsbütün dəyişib, yeni park və küçələr salınıb, yaşıllıqlar yaradılıb, rayonun bütün daxili yolları abadlaşdırılıb.

Qəsəbədə hər il quruculuq tədbirləri həyata keçirilir, bu tədbirlər yaşayış məntəqəsinin simasına yeni çalarlar qatır. Burada yaşayış binalarının da sayı ilbəil artmaqdadır. Bu tədbirlərin davamı olaraq Heydərabad qəsəbəsində yeni çoxmərtəbəli yaşayış binasının tikintisi aparılır. Düşmənlə sərhəddə həyata keçirilən bütün bu möhtəşəm işlər dahi rəhbərin siyasi xəttinin uğurla davam etdirilməsi, onun başlatdığı ordu quruculuğu prosesinin nəticəsində mümkün olub.

**Xəbərlər şöbəsi**

*Tarixdən bu günə*

## Tarixi abidələrimizin müasir poeziyada tərənnümü

***Türk-islam dünyasının ən qədim tarixə və zəngin mədəniyyətə malik müqəddəs yurd yerlərindən biri də Naxçıvandır. Bu diyar tarixən Azərbaycanın, Yaxın Şərqin və Türk dünyasının ən qədim mədəni mərkəzlərindən biri olmuşdur. Burada həm ümumtürk, həm də İslam mədəniyyətinin izlərini özündə əks etdirən tarixi memarlıq abidələri, yaşayış məskənləri aşkarlanmışdır. Muxtar respublika ərazisindəki Qazma, Kilit mağaraları, Oğlanqala, Çalxanqala, Govurqala kimi qala-şəhər məntəqələri, Əshabi-Kəhf ziyarətgahı əcdadlarımızın bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirir, Gəmiqaya qayaüstü rəsmləri bu torpaqların qədim türklərin və ümumiyyətlə, insanın ilk yaşayış məskənlərindən olduğunu təsdiqləyir.***



Təəssüflər olsun ki, sovet hakimiyyəti illərində İslam dini ilə sıx bağlı olan bu abidələrə qayğı göstərilməmiş, onlar unudulmuş, baxımsızlıqdan uçub dağılmış, bir sıra hallarda qəsdən, bilərəkdən məhv edilmişlər. Mədəni abidələrimizi qorumaq, onlara sahib çıxmaq kimi bir vəzifəni isə Azərbaycan xalqının bütün sahələrdə xilaskarı olan ulu öndər həyata keçirmişdir. Ümummilli lider Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsinin yaradılması Naxçıvanda elmin və mədəniyyətin, tarixi və dini abidələrin öyrənilməsi baxımından ən mühüm addımlardan biri oldu. Görkəmli dövlət xadimi Heydər Əliyev AMEA Naxçıvan Bölməsinin təşkili ilə əlaqədar Naxçıvanda keçirdiyi müşavirədə Naxçıvan ərazisindəki dünyamiqyaslı tarixi-memarlıq abidələrinin Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini göstərdiyini və bu səbəbdən onların qorunub saxlanılması, tədqiqi işinin mühüm əhəmiyyətə malik olduğunu vurğulamışdır. Məhz dahi rəhbərin diqqət və qayğısı nəticəsində Naxçıvandakı abidələr ikinci ömrünü yaşamağa başlamış, Möminə xatın abidəsi restavrasiya olunmuş və Qarabağlar Türbə Kompleksi bərpa olunmaqdadır. Eləcə də Əshabi-Kəhf, İmamzadə, Buxana abidələri, Bazarçay ətrafındakı yeraltı abidə, Şərq hamamı, Yusif Küseyir oğlu türbəsi, Xan evi, Culfada Xanəgah kompleksi, Naxçıvanqala, Əlincə qalası, Nuh Peyğəmbərin məzarüstü türbəsi əsaslı bərpa edilmişdir. Qədim tariximizi, mədəniyyətimizi və mənəviyyatımızı, dini inanclarımızı, müharibə və mübarizələrimizi özündə yaşadan türk-islam mədəniyyəti abidələri müstəqillik illərində təbii olaraq, hər zaman olduğundan daha çox şair və yazıçıların müraciət etdiyi mövzulardan olmuşdur.

Müstəqillik illərində yaşayan şairlərin təcrübəli, istedadlı nümayəndələrindən biri, publisist, dramaturq Hüseyn Razinin "Oğlanqala", "Əlincə qayaları" və sair şeirlərində vətənə məhəbbət, abidələrdə yaşayan qədim, şanlı tariximiz bədii əksini tapmışdır. "Oğlanqala" şeirində Şərur rayonu ərazisində Arpaçayın sahilindəki Qaratəpə dağında yerləşən ölkə əhəmiyyətli abidə fədakarlıq simvolu kimi vəsf olunur:

*Onun sükutunda min bir hekayət,*
*Məğrur duruşunda nağıllar yatır.*
*Sirli naxışları uyuyan sənət,*
*Hasarlar əfsunlar muğamatıdır.*

Naxçıvan Yazıçılar Birliyinin sədri Asim Yadigarın "Əlincə" şeirində bu məğrur qala "hər sətri qızıl qanla yazılmış tarix kitabı" kimi təqdim olunmuşdur. Əlincəçayın sahilində ucalan Əlincə qalası 14 il Əmir Teymurun qoşunlarına inadlı müqavimət göstərmişdir. Bu dövrdə Naxçıvanda hürufilik geniş yayılmış, təriqətin banisi Fəzlullah Nəimi əsarətə və cəhalətə qarşı mübarizə ideyalarını burada təbliğ etmişdir. İgidlik, məğrurluq rəmzi olan Əlincə qalasını Asim Yadigar obrazlı şəkildə "İgidlərin al qanıyla boyanan torpağının bayrağıdır Əlincə" misraları ilə təsvir edir. Asim Yadigarın "Dünyanın bəzəyi" şeirində də "doğma diyar bütün gözəllikləri ilə tərənnüm olunur:

*Tarixin özü qədər qədim,*
*Qoynunda Nuh Peyğəmbərin*
*ayaq izləri.*
*Gəmiqaya ulu babaların*
*tarixə naxışı,*
*"Biz də varıq!" sözləri.*
*Əlincə yağı başına*
*vurulan qapazındır,*
*Oğulların kimi sərtdir*
*təbiətin, havan, Naxçıvan!*

Ədəbiyyatımızın 60-cı illər ədəbi nəslinə mənsub olan Adil Qasımlı qədim tariximizdən soraq verən qalalar haqqında silsilə şeirlər yazmış, "Dağlar, qalalar, babalar" adlı kitab da nəşr etdirmişdir. "Nəğməli naxışlar", "Gəmiqayada", "Əlincədə qızılgül", "Xan sarayında" və digər şeirlər abidələrimizin bədii dilin zəngin imkanlarından istifadə ilə vəsfinə həsr olunmuşdur. Əcəmi qüdrətinin bəhrəsi olan Möminə xatın məqbərəsindəki naxışlar, şairin qənaətincə, məlahətli bir nəğmə oxuyur. "Rəngləri rəngə calayan" qüdrətli sənətkarın əsrlər keçməsinə baxmayaraq, "cilvəli naxışları" təravətini, gözəlliyini itirməmişdir. Bu təkrarolunmaz, zamana yenilməyən abidəni yaradan dünya şöhrətli naxçıvanlı memar Əcəmi Naxçıvani sənətinə də yüksək qiymət verilmişdir:



*Naxışlar oxuyur, ötür qış-bahar,*
*O nəğmə səslənir, görün nə vaxtdır.*
*Səkkiz əsrdir ki, oxuyur onlar,*
*Əsrlər boyu da oxuyacaqdır.*

Adil Qasımlının "Xan sarayında" şeiri isə qədim saray haqqında bədii salnamədir. Sarayın otaqlarını gəzə-gəzə şanlı tariximizi, qanlı döyüş meydanlarını, azadlıq uğrunda qəhrəmanlıq mübarizələrini xatırlayan şair özünü sirli, sehrli bir aləmdə hesab edir. Bir neçə əsr əvvələ dönən şair bu möhtəşəm qəsrdə tarixən baş verən hadisələri təsəvvüründə canlandırır və o anları, o zamanı yaşamış kimi də bədii dillə təsvir edir:

*Zərif naxış bir otağa nur yayıb,*
*Nağılmıdır, yuxumudur bu aləm?!*
*Otaqlardan-otaqlara adlayıb,*
*Qanlı döyüş meydanına girirəm.*

Mərhum şair Vaqif Məmmədovun "Gəmiqayada düşüncələr" silsiləsinə daxil olan şeirləri abidələrimizin tərənnümü baxımından diqqəti cəlb edir. "Gəmiqaya" şeirində daşlara həkk olunmuş, əsrlərin sınağından çıxmış qədim tariximizi şair sanki misra-misra oxuyur. Xalq qəhrəmanı Qaçaq Nəbinin, Bozatın yurdu, məskəni olan bu torpağın hər qarışında qədim bir mərhələnin, dövrün izi vardır. Şeirdə bu möcüzəli məkana aid "Şırrançay", "Saqqarsu", "Çürüklü", "Soyuqbulaq", "Yeddi çeşmə" kimi toponimlər etimoloji baxımdan xüsusi maraq doğurur. Silsiləyə aid digər şeirlərdə "Qız-gəlin çuxuru", "Qaranquş yaylağı" və digər tarixi-əfsanəvi yerlər haqqında zəngin məlumat verilmişdir:

*Qız-gəlin çuxuru sirlər saxlayır,*
*Turan tayfasından, Oğuz elindən.*
*Bir səs qız-gəlini hey haraylayır,*
*Nə qızdan xəbər var, nə də gəlindən.*

Şairin "Sədərək qalası" şeirində qədim türk-oğuz yurdu olan Sədərəkdə – Vəlidağda yerləşən Sədərək qalası tarixi abidəsindən söz açılır. Yazılı ədəbiyyatımızda adı keçən "Fərhad arxı" ətəyindən tarixi İpək Yolu keçən, Əlincəqala kimi uca zirvədə yerləşən bu qalanın belindəki kəmərə bənzədilir.

Ulu öndər Heydər Əliyevin ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə yaşadan bir diyardır"*** müdrik fikrini əsərlərinə epiqraf seçən şair-publisist Muxtar Qasımzadə "Gəmiqaya", "Oğlan qala, Qız qala", "Əlincə", "Fərhad evi", "Gülüstan", "Qarabağlar türbəsi" kimi şeirlərində bu abidələrə poeziya qiyafəsində bir daha ömür qazandırmışdır. Bu şeirlər təkcə bədii ədəbiyyat nümunələri olmaqla qalmır, eyni zamanda abidələrdə yaşayan bir xalqın qəhrəmanlıq tarixini zəngin faktlarla əks etdirir. Şair böyük məhəbbətlə Vətən torpağının, Vətən kitabının səhifələri kimi abidələri vərəqləyir, oxuyur, oxudur, danışdırır və əsas odur ki, tarixi abidələrimizi və onları yaradan xalqı sevdirməyi bacarır. Köhnəqala və ya Naxçıvanqala həm türk-oğuz ərənlərimizin, həm də bu dünyanın, yaradılışın yaşı qədər qədim tarixlərə gedib çıxan Nuh Peyğəmbərin müqəddəs məzarının yerləşdiyi bir məkan kimi diqqət mərkəzinə çəkilir. Nuh babanın məzarı "Naxçıvanın Məkkəsi" adlandırılır. "Buzxana" şeirində yüksək memarlıq üslubunda tikilmiş, XII-XIV əsrlərə aid Buxanadan bəhs olunur.



2010-cu ildə Naxçıvan Muxtar Respublikasında "İlin ən yaxşı gənc şairi" adına layiq görülmüş şair Qanun Ümman "Əlincə" adlı qoşma janrında yazılmış şeirində qalanın təkcə tarixi qüdrəti, əzəməti, mübarizə əzmi, yenilməzlik simvolu deyil, həm də təkrarsız, füsunkar təbiəti tərənnüm olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamından sonra qala bərpa edilmiş, burada "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi yaradılmışdır. Qala haqqında şeirlər, poemalar və pyesdən ibarət "Əlincəqala" kitabında Asim Yadigar, Muxtar Qasımzadə, İbrahim Yusifoğlu, Qafar Qərib, Elxan Yurdoğlu və başqalarının əsərləri işıq üzü görmüşdür.

Yuxarıda qeyd etdiklərimiz təsdiq edir ki, müstəqillik illərində Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılarımız tarixi abidələrimizdən bəhs edən, onları qədim tariximizin yadigarları kimi tərənnüm edən qiymətli bədii nümunələr qələmə almışlar.

Qədim diyarımızda əsrlərdən bəri qorunub yaşadılan və yüksək dövlət qayğısı ilə əhatə olunan, islami dəyərləri özündə yaşadan abidələrin bərpası və təbliği sahəsində aparılan işlər bundan sonra da daha yüksək səviyyədə davam etdiriləcək, Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə əlaqədar olaraq bu mövzu da şairlərimizin yaradıcılığında öz zəngin əksini tapacaqdır.

**Aygün ORUCOVA**
**filologiya üzrə fəlsəfə doktoru**

## Könüllü qanvermə aksiyası keçirilib

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirir.***

Növbəti belə nəcib və humanitar aksiya dekabrın 12-də Naxçıvan Muxtar Respublika Xəstəxanasında baş tutub. Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş qanvermə aksiyasında Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları iştirak ediblər.

Donorlardan əvvəlcə arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib.

Onların müayinəsini və qan götürülməsini həyata keçirən Mərkəzi qan bankı şöbəsinin müdiri Məmmədəli Həsənov ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. O bildirib ki, müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qanitirmələrdə, xroniki qanazlığında, daxili orqanların, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Bu da qana olan tələbatı artırır.

Bir neçə saat davam edən aksiyada nazirliyin 31 əməkdaşı könüllü olaraq qan verib. Onlardan götürülən 14,5 litr qan Mərkəzi qan bankına təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İdmançılarımız 13 medal qazanıblar

Hövsan Olimpiya-İdman Kompleksində keçirilən kempo qarışıq döyüş növü üzrə üçüncü Avrasiya çempionatı başa çatıb. İki gün davam edən birincilikdə 600 idmançı mübarizə aparıb.

Çempionatda Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının 13 idmançısı da iştirak edib. Onların uğurlu çıxışları 13 müxtəlif əyarlı medalın qazanılması ilə nəticələnib. Belə ki, 12-14 yaşlı idmançıların mübarizəsində 35 kiloqram çəki dərəcəsində Heydər Quliyev, 45 kiloqram çəki dərəcəsində İbrahim Əsədli qızıl, 50 kiloqram çəki dərəcəsində isə Kamal Əsədov gümüş medal qazanıblar.

Gənclərin mübarizəsində isə idmançılarımızdan Fərid Məmmədov (50 kiloqram), Əhməd Rzayev (55 kiloqram), Nizami Hüseynov (60 kiloqram) və Xızır İsmayılov (65 kiloqram) qızıl, Fərəc Quliyev (50 kiloqram) gümüş, Turqay İsmayılov (60 kiloqram) və Coşqun Əliyev (65 kiloqram) isə bürünc medal əldə ediblər.

Kişilərin mübarizəsində də idmançılarımız mükafatçılar sırasına düşməyi bacarıblar. Belə ki, 60 kiloqram çəki dərəcəsində Nail Sarıyev qızıl, 65 kiloqram çəki dərəcəsində isə Seyfulla Mehtiyev gümüş medala layiq görülüblər. Ən ağır – 100 kiloqram çəki dərəcəsində mübarizə aparan Səyyad Məmmədov isə sırası ilə Rusiya, Pakistan, İran, Gürcüstan və Türkiyə idmançılarını məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**

***Bildiriş***

"Cahan Sənaye Kompleksi" Açıq Səhmdar Cəmiyyəti (VÖEN-0200460081) adı dəyişdirilərək "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1008